Azad Azərbaycan

22 iyun / 2021

# Ülvi arzuları ilə şəhadətə ucalan qəhrəman: Xəyal Əliyev

**Vətən müharibəsinin 22 yaşlı qəhrəmanı şəhid kəşfiyyatçı Xəyal Əliyev döyüşlər vaxtı şücaəti ilə seçilib. O, ermənilərin xeyli sayda canlı qüvvəsini və hərbi texnikalarını məhv edib. Hərbçi yoldaşlarını xilas etmək üçün düşmən tankı ilə üzbəüz çıxaraq onu partladıb, özü isə şəhidlik zirvəsinə ucalıb.**



Xəyal Əliyev 1999-cu il aprelin 25-də Beyləqan rayonunun Qəhrəmanlı kəndində dünyaya göz açıb. Köçkün ailəsində böyüyən Xəyal hər zaman işğal altında olan torpaqlarımızın həsrəti ilə yaşayıb.

Qəhrəman övladı haqqında qürurla danışan şəhid atası Saleh Əliyev deyir ki, Xəyal həqiqi hərbi xidməti yerinə yetirdikdən sonra, öz istəyi ilə müddətdən artıq xidmətçi kimi Vətənin keşiyində dayanmağı qərara alıb. Kəşfiyyatçı olaraq xidmət edən Xəyal həm də xüsusi təlimlərdən uğurla keçib. Vətən müharibəsi başlananda ilk döyüşə girənlər arasında Xəyal da olub. Onun döyüş yolu ata-baba yurdları olan Füzuli torpaqlarından başlayıb. Açdığı dəqiq atəşlə ermənilərin dayaq məntəqələrini, 200-ə yaxın canlı qüvvəsini və hərbi texnikalarını məhv edib. Xəyal döyüşlərin birində düşmən tankının irəlilədiyini görür və tankla üzbəüz çıxaraq onu məhv edir. Lakin özü də düşmən tərəfindən açılan snayper güllləsinə tuş gəlir. O, şəhid olsa da, döyüşçü yoldaşlarını xilas edir.

**Şəhid anası Ofelya Hacıyeva isə şəhidlərimizin ölmədiyini, hər zaman qəlblərdə yaşayacağını söyləyir. "Xəyal evin son beşiyi idi. Hər zaman həmyaşıdlarından fərqlənirdi. Ən böyük arzusu isə ata-baba yurdunun düşməndən azad edilməsi idi. O, ülvi arzusu uğrunda yaşadı və bu arzu ilə şəhadətə ucaldı. Bu gün torpaqlarımız Xəyal və onun kimi qəhrəman övladlarımızın igidliyi sayəsində azaddır", - deyə şəhid anası bildirib.**

Xəyalın bacısı Jalə Əliyeva qardaşı haqqında göz yaşları ilə danışsa da, qürurlu olduğunu və onunla fəxr etdiyini deyib: "Xəyal igidliyi, qorxmazlığı ilə seçilirdi. Düşmənə qarşı hər zaman qisas hissi ilə yaşayırdı. O, hər zaman Xocalı faciəsinə aid kadrları izləyəndə kövrəlirdi və deyirdi ki, biz torpaqlarımızı azad etməliyik və şəhidlərimizin qisasını almalıyıq. Xəyal bu amal uğrunda yaşayırdı, ona görə öz istəyi ilə Vətənin keşiyində dayanmağı seçdi. Ata-baba yurdumuz Füzuli uğrunda döyüşərək, qəhrəmancasına şəhidlik zirvəsinə ucaldı".

**Qeyd edək ki, Xəyal Əliyev oktyabr ayının 1-də şəhadətə ucalıb. O, ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.**

**MƏMMƏDHƏSƏN**